*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 4, s.119-123*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 4, p.119-123*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 4, с.119-123*

**UOT: 903(574.2):930.85**
https://doi.org/10.30546/670832.2025.02.1190

# Tarixin gedişatına baxışı dəyişən Göbəklitəpə abidəsi haqqında bəzi mülahizələr

**Müəllif(lər):**

**Qorxmaz Hacızadə**
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
**E-poçt:** qorxmahacizade313@gmail.com

**Açar sözlər:** Göbəklitəpə, simvol, abidə, heyvan, tikinti, ibadət, məbəd

**Annotasiya.** Məqalədə XX əsrin sonlarında dünya tarixində bəzi tədqiqatçıların ilk məbəd, ilk tapınaq bəzilərinin isə ovçuların ilk toplanma yeri, o dövr insanlarınını ilk ictimai məkanı olan Göbəklitəpədən bəhs olunur. Bu fundamental abidə həqiqətəndə dünya tarixinin gedişatını dəyişən əsrarəngiz bir abidədir. Məqaləni aktual edən əsas səbəblərdən biri buradan tapılan və 12 min il bundan əvvələ aid olan, dünya tarixində hələlik rast gəlinməyən möhtəşəm tikili qalıqları, insan və heyvan simvollarının izahıhının elmdə hələdə tam olaraq cavab verilməməsidir. Bu abidə dünya tarixçiləri və arxeoloqlarının birmənalı şəkildə qəbul etdiyi, dünyada ağıllı insan tərəfindən yaradılan ilk ümumi toplanma və ibadət yeridir. Bununla belə buradakı maddi mədəniyyət qalıqları son dövrə qədər elmdə məlum olan bir fikr haqqında araşdırmaçıları düşünməyə vadar etdi. Beləki, tarixdə insanların ilk olaraq əkinçilikdən sonra mədəniyyətə keçdiyi deyilirdisə, bu abidə bu nəzəriyyəni dəyişərək əksinə olduğunu dəlillərlə subuta yetirdi. Məqalədə əsas məqsəd o dövr insanlarının dünyaya və ətraf aləmə baxışını, başqa canlılara münasibətlərini, həmin insanlarda düşüncə və yaradıcılıq qabiliyyətinin düşündüyümüzdən fərqli olaraq, çox yüksək dərəcədə inkişaf etdiyini aydınlaşdırmaqdan ibarətdir. Nəticə olaraq bu mənada Göbəklitəpə abidəsi bizlərə atlarımızın bizə məlum olan Misir, Mesopotomiya və başqa mədəniyyətlərdən minillərlə öncə də böyük bir mədəniyyətə sahib olduğunu açıq-aşkar göstərir

## Some considerations about the Gobeklitepe monument-changing the view on the course of history

**Author(s):**

**Qorkhmaz Hajizade**
Nakhchivan Teachers Institute
Teacher
**E-mail:** qorxmahacizade313@gmail.com

**Key words:** Gobeklitepe, symbol, monument, animal, construction, praying, temple

**Abstract.** In the article it is stated about Gobeklitepe, which some researchers consider the first temple, the first sanctuary, and some the first gathering place of hunters, and the first public place of people of that time in world history at the end of the 20th century. This fundamental monument is truly a mysterious monument that changed the course of world history. One of the main reasons that makes the article actual is that, the remains of the magnificent building found here, dating back 12 thousand years, which has never been encountered in world history, and the explanation of the human and animal symbols have not yet been fully answered in science. This monument is unequivocally accepted by world historians and archaeologists as the first general gathering and worship place created by intelligent human beings in the world. However, material- cultural remains here have made researchers think about an idea that was known in science till nowadays. Thus, in the history it was stated that, people first passed over culture after farming, this monument changed this theory and proved scientifically its being contrary. The main objective of the article is to clarify the view of the people of that time on the world and environment, their relationship with other living beings and development of creative ability to a high extent unlike what we think. As a result, in this sense, the Gobeklitepe monument clearly shows us that, our forefathers possessed great culture thousand years before the Egyptian, Mesopotamian and other cultures known to us.

## Некоторые соображения о памятнике Гёбеклитепе, изменившем взгляд на ход истории

**Автор(ы):**

**Горхмаз Гаджизаде**
Нахчыванский институт учителей
Преподаватель
**Э-почта:** qorxmahacizade313@gmail.com

**Ключевые слова:** Гёбекли-тепе, символ, памятник, животное, строительство, культ, храм

**Аннотация.** В статье рассматривается памятник Гёбекли-Тепе, который в конце XX века стал объектом пристального внимания исследователей и был охарактеризован одними как первый храм, первый культовый комплекс в истории человечества, а другими — как первое место собрания охотников, первое общественное пространство людей той эпохи. Данный фундаментальный памятник действительно представляет собой загадочный объект, изменивший представления о развитии мировой истории. Одной из основных причин актуальности статьи является то, что обнаруженные здесь величественные архитектурные сооружения, датируемые приблизительно 12 тысячами лет назад и не имеющие аналогов в мировой истории, а также интерпретация антропоморфных и зооморфных символов до настоящего времени не получили в науке исчерпывающего объяснения. Памятник признан историками и археологами мира как первое в истории человечества общее место собрания и культового поклонения, созданное разумным человеком. Вместе с тем материальные остатки культуры, выявленные на данном объекте, побудили исследователей пересмотреть существовавшую до недавнего времени в науке концепцию о том, что переход к культуре произошёл лишь после возникновения земледелия. Гёбекли-Тепе убедительно продемонстрировал обратную последовательность, доказав, что формирование сложных культовых и общественных структур предшествовало аграрной революции. Основная цель статьи заключается в выявлении мировоззренческих представлений людей той эпохи, их отношения к окружающему миру и иным живым существам, а также в обосновании того, что уровень их мышления и творческих способностей был значительно выше, чем предполагалось ранее. В заключение подчёркивается, что памятник Гёбекли-Тепе наглядно свидетельствует о существовании высокоразвитой культуры задолго до известных нам цивилизаций Древнего Египта, Месопотамии и других культур.

**Giriş.** E.ə. XIII minillikdə dünyada son buzlaşma dövrü başa çatmış və tədricən istiləşmə dövrü başlamışdı. Əsasən bu hadisəyə görə dünyada iqlimin dyişikliyi baş verir, bitki və heyvan aləmi zənginləşir, insan bu dəyişimə uyğunlaşır və insanın həyatında mühüm dəyişiliklər məhz bu zaman yaranır. Buna görə insan ətraf aləmdən, xüsusilə də heyvanlardan ayrılır. Məhz həmin bərəkətli yerlərdən biri də şimali Mesopotamiya idi. Bəzi tədqiqatçılar buranı insanlıq mədəniyyəti tarixinin birmənalı olaraq ən qədim yeri olduğunu qeyd edirlər. Türkiyənin cənub-şərqində yerləşən Urfa və Harran bölgəsidə məhz burada yerləşir. Burada yerləşən və dünya tarixinin əsrarəngiz abidəsi olan Göbəklitəpədə məhz bu ərazidədir. Arxeoloji qazıntılarda yaşı 12 min il öncəyə dayanan Göbəklitəpənin kəşfi dünyada tarix və arxeoloji elmi baxımdan çox önəmli yer tutur. Şanlıurfa şəhər mərkəzindən 15 km şimal-şərqdə yerləşən və Qaraxarabə (Örencik) kəndinin 2,5 km şərqində yerləşən Göbəklitəpə, neolitik dövrə (e.ə. 10.500 – e.ə. 7.500) aid bir tarixi  mərkəzdir. Bu abidə dəniz səviyyəsindən 200-300 metr yüksəklikdə və əhəngdaşı qayalıqlardan olan bir təpənin üzərində, Harran ovalığına hakim bir yerdə inşa olunub. Yerləşdiyi yer forma olaraq göbəyə bənzədiyi üçün bu yer Göbəklitəpə olaraq adlandırılmışdır. Göbəklitəpənin sirli bir yer olmasını ilk dəfə 1963-cü ildə İstanbul və Çhiqako Üniversitetinin birgə “Cənub-şərqi Anadolu Tarixöncəsi Araşdırma layihəsi” adıyla aparılan üz araşdırmaları müəyyən etmişdir [2, s.8]. Onlar burada olan süni təpələrdən və tapılan müxtəlif növ daşlardan nəticələnərək bu məkanın bir məzarlıq olmasını bildirmişlər və bununla kifayətlənərək başqa tədqiqat aparmamışlar. Buranın tədqiqinə uzun müddət ara verilmişdir. Sonralar Amerikalı arxeoloq Peter Benediqt burada araşdırma apararaq buranın orta əsrlərə aid bir Bizans məzarlığı olduğunu bildirmiş hətta burada qazıntıların aparılmasını mənasız olduğunu qeyd etmişdir. Başlanğıcda bu arxeoloji yerin əsl dəyəri anlaşılmamış və bölgənin böyük kirəçdaşı bloklardan qurulmuş məzar qalıntısı olduğu düşünülmüşdür. Bu  ərazi bölgə əhalisi tərəfindən uzun müddət əkinçilik və heyvandarlıq məqsədi ilə istifadə olunurdu. Ancaq 1986-cı ildə burada əkin zamanı bir əkinçi buradan iki heykəl tapır. Məhz bu hadisə ilə buranın tarixdə önəmli yer olmasının önü açılır. Həmin əkinçi bu heykəlləri Urfa tarix muzeyinə təhvil verir. Ancaq muzeyin rəhbər heyəti bu heykəllərin tarixi əhəmiyyətinə önəm verməyərək onların sıradan bir heykəl olduğunu və tarixinin isə son dövrlərə aid edildiyini düşünmüşlər. Bir müddət sonra Göbəklitəpəyə yaxın ərazidə olan və neolit dövrə aid edilən Nevali Çori adlanan yerdə araşdırma aparan məşhur Alman Arxeologiya İnstitutunun arxeoloqu Harald Hauptmanın Urfa tarix müzeyində olarkən bu heykəlləri görmüş və bu əsrarəngiz heykəllər onun diqqətini cəlb etmişdir. O, bu heykəllərin araşdırılmasını tələbəsi olan və Göbəklitəpəni dünyaya tanıdan məşhur və görkəmli Alman arxeoloq Klaus Şimidtə tapşırır. Qazıntılar 1995-ci ildə Şanlıurfa Muzeyinin rəhbərliyi və İstanbuldakı Alman Arxeologiya İnstitutundan Harald Hauptmannın elmi məsləhəti ilə aparılan səth tədqiqatından sonra başladı. Qədim Anadolu tarixi boyu bir çox sivilizasiyaya ev sahibliyi etmiş, zəngin tarixi, mədəni və arxeoloji mirasın yaranmasına töhfə vermişdir. Buna görə burada yerləşən Göbəklitəpə abidəsi mədəni irs olaraq əhəmiyyətli dəyərə malikdir.

**Materiallar və metodlar**. İlk olaraq praktik material kimi bu arxeoloji abidənin məhz özünü götürmək olar. Çünki bu abidə açıq hava altında aşkar şəkildə fəaliyyət göstərir. Əlavə olaraq material kimi bölgədə yerləşən Şanlı Urfa tarix müzeyindəki eksponatlardan da istifadə edilir. Çünki müzeydə abidədən tapılan bütün maddi-mədəniyyət nümunələri burada qorunaqlı şəkildə nümayiş etdirilir. Bu abidə haqqında ən böyük çoxşaxəli materiallar məhz buranı ilk olaraq dünyaya tanıdan məşhur Alman arxeoloqu Klaus Schmidtin tədqiqat əsərləridir. Əlavə olaraq Andrew Collins, Necmi Karul kimi arxeoloqların elmi əsərlərində də bura haqqında geniş məlumatlar mövcuddur. Başqa səpkili materiallara gəldikdə isə biz buraya video və sənədli filmləri aid edə bilərik. Bunlara National Geographic, BBC və TRT bəlgəsəldə yayımlanan sənədli filmləri misal çəkə bilərik.

Metodlara gəldikdə isə burada tarixi-müqayisəli metotdan istifadə edilərək, Göbəklitəpə digər qədim məbədlərlə müqayisə olunur. Bu müqayisələr nəticəsində  müəyyən edilir ki, Göbəklitəpə daha sonrakı Mesopotamiya, Misir və başqa məbədlərin ilkin forması olmuşdur. Me-

marlıq üslubu, daş sütunlar və heyvan fiqurları sonrakı dövrlərin dini rəmzlərinə bənzəyir. Bu metod abidənin bəşəri mədəniyyətin inkişafındakı yeri və təsirini aydınlaşdırmağa kömək edir. Digər metod olan tarixi-analitik metodla isə arxeoloji tapıntılar daş fiqurlar, heyvan təsvirləri, T formalı sütunlar təhlil edilir. Bu təhlil nəticəsində müəyyən edilir ki, Göbəklitəpədə təsvir olunan simvollar totemik və dini məna daşıyır. Analitik yanaşma abidənin dini-mənəvi və ideoloji funksiyasını anlamağa imkan verir.

**Nəticələr və müzakirə.** Klaus Şmidtin elmi rəhbərliyi ilə buradan daha öncə dünyanın heç bir yerində o dövrə aid rastgəlinməyən möhtəşəm tikintilər aşkarlandı. Xüsusilə üzərində heyvan fiqurlarının və simvolların olduğu T şəklindəki dikili daşlar və bu dikili daşlardan ibarət dairə formasındakı tikililər dünya tarix elminin diqqətini çəkmişdir. Göbəklitəpə məbəd kompleksi bu günə qədər mezolit dövrünə aid ən qədim mədəni istehkam sayılır. Onun tikintisi mezolitdən başlamış və bir neçə minilliklər davam etmişdir. Günümüzdən 12 min il əvvələ aid olan Göbəklitəpənin tarixdə ən böyük ibadətgah və inancın ilk yeri olduğu düşünülür. Bu məbəd bəşəriyyət tarixinin mədəni anlayışını və məlumatını dəyişdirən bir kəşfdir. Arxeoloqlar Misir Piramidalarından 7500 il daha qədim olan Göbəklitəpə haqqında danışarkən "Bura o qədər fövqəladədir ki, insan şüuru onu anlamaqda çətinlik çəkir" deyirlər. Buranı tarixin ən qədim məbədi, "dinin doğulduğu yer" və hətta "cənnət bağı" adlandıran arxeoloqlar da var.

Qazıntıların ilk vaxtlarında buradan dörd yuvarlaq otaqlar aşkar edildi və onlar müvafiq olaraq A, B, C və D olaraq təyin edildi. Sonrakı qazıntılarda E, F və G olaraq adlanan daha üç otaq aşkar edildi. Geomaqnit ölçülərlə bu tiplə oxşar olan ən azı iyirmi belə monumental strukturun mövcudluğu təsbit edilmişdir. C və D otaqlarının diametri 30 metr, B-nin diametri 15, A-nın isə diametri təxminən 15 və 10 metrdir. Bunlardan ən böyük otaq və sütünlar D otağındadır. Göbəklitəpə tikililəri, diametri 10 ilə 30 metr arasında dəyişən və ətrafı daş hörgü divarla çevrili dairəsəl tikililərdən ibarətdir. Bu tikintinin mərkəzində və divarlarında bitişik olaraq dikili daşlar yerləşir. Bu tikintinin mərkəzində bir-birinə paralel iki ədəd böyük və ətrafı daş divarına bitişik 10 ilə 12 ədəd arasında dəyişən daha kiçik T şəklində dikili daşlar tapılmışdır [3, s.8]. Arxeoloqların əksəriyyəti sütunların T şəkilli olmasını insan formalı olması ilə bağlayırlar. T-nin üst qismi baş hissəsini, alt hissəsi isə insanın bədən hissəsini təşkil etdiyi deyilir. Bir sütunda kəmərlərin və boyunbağının daş üzərində qabartmalarla işlənməsi bunu sübut edir. Daş sütundakı insanın əlləri qarın bölgəsində birləşik vəziyyətdə təsvir edilmişdir. Burada insan başı tapılıb ki, bu baş deşik vəziyyətdə olub və bu deşiyin həmin başı asmaq üçün deşildiyi güman edilir. Bunun da ritual dini mərasimlə bağlı olduğu bildirilir. T şəklindəki dikili daşların üzərində əl və qol təsvirlərinin olması bunların daşdan hazırlanmış insan formalı heykəllər olduğunu isbat edir. Üzləri aydın olmayan insan formalı bu dikili daşların tam olaraq nəyi xarakterizə etdiyi barəsində tədqiqatçıların ümumi fikrlərində yekun bir görüş yoxdur. Bu dikili daşların insanları, tanrıları, ataları və ya ruhları simvolizə etdiyi yönündə müxtəlif fikirlər var.

Göbəklitəpənin ən diqqət çəkən məqamlarından biri də, daşların üzərində qabartma üsulu ilə işlənmiş heyvan fiqurları və mücərrəd simvollardır. Burada daşlar üzərində ən çox rast gəlinən heyvan təsvirlərinə - ilan, tülkü, çöl donuzu və quş (ördək, durna, qartal, kərkəs və b.) kimi heyvanları nümunə gətirmək olar. Bunlardan əlavə aslan, buğa, qoçbaşı, eşşək, qoyun və ya keçi, böcək və hörümcək kimi heyvanların təsvirləri də mövcuddur. Təsvirlərdə xüsusilə tülkü, ilan, əqrəb və hörümcək kimi yem və əhilləşdirmə məqsədliə istifadə edilməyən heyvanların daha çox seçilməsi və bunun əksinə olaraq ən çox ovlanılan ceyran, qoyun və keçi kimi heyvanların isə az görsənməsi diqqət çəkicidir. Bu heyvanlardan bəziləri (aslan) artıq bu bölgədə yoxdur. Hörümcək, əqrəb, ilan kimi heyvanların rəsmlərinin olması bu heyvanları ovlamaq və ya onlardan qorxduqları üçün şəklini çəkdikləri qeyd olunur. Daşlardakı heyvan fiqurları ümumiyyətlə aqressiv olaraq çəkilib. Sanki buraya gələn və girmək istəyənlərin üstünə hücum edəcək kimi görünürlər. Burada qarşımıza ən çox ilan motivi çıxmaqdadır [5, s.220]. Kərkəs təsvirlərinin yerli kultla əlaqəli olduğu güman edilir. Güman edilir ki, həmin dövrdə ölü dəfn edilmirdi. Cəsəd qurd-quşa, xüsusən də kərkəsə yem olurdu. Ma-

raqlıdır ki, bu tərz sonralar atəşpərəstlər tərəfindən qəbul edilmişdir.[1, s.138]. Cəsəddən ayrılmış baş isə əcdadlarının kultu kimi saxlanılırdı. Bu tərzə isə sonralar natufiy mədəniyyətində də rast gəlinmişdir. İnsan təsviri kərkəs əhatəsində başsız cəsəd kimi verilirdi.

Aparılan araşdırmalar nəticəsində iki yüzdən artıq dikili daşın varlığı müəyyən edilmişdir. Ortalama 3 və 5.5 metr uzunluğunda və 10-15 ton ağırlığında olan bu daşlardan bəzilərinin boyu 7 metrə və ağırlığı isə 50 tona yaxındır. T şəklindəki dikili daşların üzərində, qabartma texnikliyi ilə yaradılmış olan H şəklində və bunun 90 dərəcə çevrilmiş şəkli, yastı və dik vəziyyətdə yarım ay, dairə və səbət formasında simvollar mövcuddur. Bunlardan çox sıx qarşımıza çıxan H şəklindəki simvolların anlamı tam olaraq açılmamışdır. Bu işarəni bəzi tarixçilər firavanlıq və güc mənasında olmasını bildirirlər [4, s.723]. Yarım ay və dairə simvolların isə Günəş və Ay olaraq olması ehtimal edilməkdədir. Ayrıca qazıntı yerindəki qaya üzərində çox sayda dairə simvolları mövcutdur.

Dünya tarix elmində açılmamış suallardan biri də buranın nə olması ilə bağlı olan fikirlərdir. Çünki o dördə yazı olmadığına görə buranın tam nə olduğu bilinmir. Buranı ibadətgah yeri, cəlbedici yaşayış yeri, ovçu toplumların toplanma yeri, və başqa bu kimi müxtəlif məkanla əlaqələndirən görüşlər vardır. Klaus Şmidtin burada 1995-ci ildən başlatdığı araşdırmalardan sonra Şmidt başda olmaqla bir sıra məşhur arxeoloqlar buranın ibadətgah olduğu tezisini irəli sürdülər. Onların bu fikrə yönəlməsinə başlıca səbəb XX əsrdə dünyanın heç bir arxeoloji abidəsində rastlanmayan tayı bənzəri olmayan görkəmli tikililərin, müxtəlif heyvan təsvirləri və simvolların olması idi. Şmidt və həm fikirləri 12 min il bundan əvvəl yaradılan bu izahı çətin olan tikilini insanların öz əcdadlarına sitayiş və inamı ilə əlaqələndirirdilər. Məhz bütün bunlara görə onlar bu yerin müqəddəs bir yer olduğu qənaətində idilər. Bu teorim müdafiəçiləri buranın yaşayış yeri olmasını qətiyyətlə inkar edirdilər. Ancaq 2017-ci ildən günümüzə aparılan Alman və Türk arxeoloqlarının qazıntı araşdırmalarının nəticələri birinci tezisin bəzi arqumentlərini yetərsiz etdi. Belə ki, son dövrdəki tədqiqatlarda buranın yaşayış yeri olması ehtimalı ortaya atıldı. Buna misal olaraq, bura çox yaxın yerləşən Karahantəpə yaşayış yerindən burdakı kimi yuvarlaq tikintilərin olduğu və gündəlük istifadə edilən əşyalara çox rast gəlinməsi və su xətlərinin aşkar edilməsi bu ehtimalı gücləndirirdi. Hazırda Göbəklitəpə qazıntı işləri rəhbəri, tanınmış arxeoloq Necmi Karul və bir sıra arxeoloqlar son araşdırmalarla buranın daha çox ov ovlayıcı toplumların toplandığı məkan və ictimai yığıncaq yeri olduğunu qeyd edirlər. Birinci tezisin əksinə olan bu tədqiqatçılar belə hesab edirdilər ki, bura ibadətgah olarsa onda bura bir anlam vermək gərəkir. Belə ki, onda burada bir dini kahinlər sinfinin olması gərəkir ki, bizdə bunları bu yerdə görmürük. Onlara görə bütün bunlar buranın orqanizə bir ibadət yeri olduğu ehtimalını zəiflədir. Çünki o dövrdə nəyin müqəddəs olması yazı olmadığına görə bilinmirdi. Onlar buranı daha çox, idarəedici məqsədlə çox sahəli kütlənin yığışdığı və istifadə edildiyi yer və ya ovçuların toplandığı yer kimi təsvir edirlər. Bu fikrin tərəfdarları hələ o zamanlarda insanların həyatında dinin animist olduğunu, hələ o vaxtlarda insanların həyatının heyvanlardan ayrılmadığını bildirirlər. Onlar tam bu zamanda insanların heyvanlardan yavaş-yavaş ayrıldığını bildirirlər.

Klaus Şmidtə görə buraya fərqli yerlərdən fərqli qəbilələr görüşməyə gəlirdilər və burdakı daşlardakı fərqli simvollar həmin fərqli qəbilələrə məxsusdur. O dövrdə insanlar müəyyən bir vaxtda müəyyən edilmiş yerdə toplanırdılar. Göbəklitəpənin yerləşdiyi məkan təxmini 200 kilometr məsafədən yaxşı göründüyü üçün insanlar bura gəlirdilər. Gələnlərin buraya çox uzaq məsafədən deyil, yaxın ərazilərdən də gəlmələri ehtimal edilir. Çünki burdakı dikili daşlar bu bölgə ilə sərhədlənir və burdan uzaq kənar yerlərdə bu daşlara təsadüf edilmir. Bu dairəvi yerlərdə insanların sayı təxmini 20-25 nəfərdən ibarət idi. Buna görə ki, bu kimi yerlər bir neçə olsa da, bunların sahəsi çoxda geniş deyildi. Tikinti üçün daş kompleksin yaxınlığından əldə edilmişdir. Qəribə də olsa onların daş tiyələr vasitəsilə kəsilib yonulması təxmin edilir. Daş karxanada bir neçə uzunluğu 9 m-ə çatan bitirilməmiş sütunlara rast gəlinir. Buradakı böyük daş sütunların bölgədəki daşlardan olduğu və buraya təxmini 500 metr məsafədən gətirildiyi bildirilir. Bu sütunlar çox dayanıqlı daş materialından seçilir, enli olur və rahat daşlıq yerlərdən çıxarılırdı. Bu daş alətlər rahat işlənə bilən materialdan olurdu. Buradakı

daş işləmə ocaqlarının olması buna sübutdur. Bu sütunlardakı rəsimləri isə burdan tapılan bazalt tipli vulkanik daşlarla çəkirdilər. Bu ağır tonlu daşları dik qaldırmaq üçün iplərdən istifadə edilirdi. Misal olaraq Paskalya adasındakı 5 tonluq daş heykəlləri 70 nəfərə yaxın insanın daşıyaraq dik qaldırılmasını bildiyimiz kimi bu daşların da təxmini 100 nəfərlik insanlarla daşınıb dik qaldırıldığını güman etmək olar. Buradakı tikililərin nəyə görə dairəvi formada olmasının səbəbini professor Necmi Karul o dövrdəki insanların tikintidə küncləri bilməməsi ilə əlaqələndirirdi.

Burada maraqlı məqamlardan biri də tapılan və mövcud olan anlayışların demək olar ki, hamısının kişilərə aid olması və onunla mənalandırılmasıdır. Sadəcə bir daşın üzərində qadına aid rəsm vardır. Bu rəsmdə də qadının təsviri dünyaya uşaq gətirərəkən şəklində verilmişdir. Başqa diqqət çəkən nüanslardan biri indiyədək aparılan qazıntılardan müdafiə və savaş məqsədilə əlaqəli olan alətlərin aşkar edilməməsidir. Bütün bunlar belə nəticəyə gəlməyə imkan verir ki, o dövrdə bu məkanda və ətraf ərazilərdə insanlar və qəbilələr arasında dinc və mehriban münasibətlər hökm sürməkdə idi.

Klaus Şmidt başda olmaqla bir sıra arxeoloqlar bildirirlər ki, insanlar buranı tərk edərkən bu ibadətgahın başqalarının əlinə keçməməsi üçün buranın üstünü daşlarla örtüblər. Necmi Karulda bu fikri irəli sürür. O, bu fikrini buradan tapılan və bura aid olmayan çoxlu müxtəlif daşların olması ilə əlaqələndirir. Ancaq son dövrdə mövcud olan bu tezisə qarşı tamam fərqli mövqedə olan bir fikir meydana gəldi. Bu tezis Klaus Şmidtin tələbəsi olan ingilis arxeoloq Clarre Lee tərəfindən irəli sürülüb. Arxeoloq buranın daşlarla örtülməsini bu yerin sakinləri tərəfindən deyil, buranın insanlar tərəfindən tərk edildikdən sonra öz-özünə təbii şəkillə əlaqələndirirdi.

Arxeoloji abidə 2018-ci ilin iyulunda UNESCO-nun dünya irs siyahısına salınıb. 2019-cu ilin martında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə burada arxeoloji muzey-kompleks açılıb. Həmin il ölkədə "Göbəklitəpə ili" elan olunub.

**Nəticə.** Ümumi olaraq həyatını ovçu toplayıcı olaraq keçindirməyə çalışan, din və başqa düşüncələrdən yoxsul olduğu düşünülən, əkinçiliyə başlamayan və oturaq həyata keçməyən insanların güclü və zəngin bir simvolik abidələr inşa etməsi elm adamlarının diqqətini dərindən cəlb etmişdir. Bu abidə qədim insanların müasir insanlara miras olaraq qoyduğu insanlığın erkən dövrünün sirlərini daşıyan əsrarəngiz və fundamental bir abidədir. Göbəklitəpə mədəniyyətinin dəyərini biz ən azı Mesopotamiyadakı ilk şəhərlərdən 5000 min il, İngiltərədəki Stonhengen tikililərdən 7000 min, və Misir ehramlarından 7500 il əvəllə aid olduğunu qeyd edərək qiymətləndirə bilərik. Bu abidə həmin mədəniyyətlərin qaranlıqda qalmış yerlərinin işıq üzü görməsinə səbəb olan bir megatik abidədir. Nəticədə o dövrün insanlarının hələ mədəniyyətlərinin və dünya görüşlərinin çox-çox aşağı olduğu düşünülsədə, bu abidə bu fikirləri alt-üst edərək həmin insanların hansı yüksək mədəni, dini, ictimai bir düşüncəyə sahib olduğunun bariz bir nümunəsidir. Əbəs yerə deyil ki, Türkiyəli araşdırmaçı professor Ahmet Arslan qeyd edir ki, qərb dünyasındakı bir fikrə görə onlar Göbəklitəpəni dünya arxeoloji tarixinin ən böyük kəşfi hesab edirlər.

**Ədəbiyyat**

1. Andrev, C. Göbeklitepe: Tanrıların doğuşu / C.Andrev. – İstanbul: ALFA Basım Yayım Dağıtım, – 2014. – 527 s.
2. Abdullah, K. Türkiyenin Unesco değerleri ve turizm pontansiyeli / K.Abdullah. – Konya: Eğitim Yayınevi, – 2018. – 406 s.
3. Ali Osman, K. Mehmet Emin, G.Anadoluda İlk Tapınak: Göbeklitepe / K.Ali Osman, G. Mehmet Emin. – Ankara: Cumhuriyyet ilahiyat dergisi, – 2017. – 32 s.
4. Sanducci, A. Qədim alimlər türk xalqları haqqında /A.Sanducci. – Los Angels: Meqa nəşr, – 2023. – 796 s.
5. Klaus, Ş. Taş çağı avcılarının gizemli kutsal alnı Göbeklitepeni eski tapınağı yapanlar / Ş.Klaus. – İstanbul: Mas Matbaaclık, – 2007. – 314 s.

*Məqalə tarix üzrə elmlər doktoru, professor Hacıfəxrəddin Səfərli tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 12.09.2025, son daxilolma – 20.10.2025, qəbulolunma – 05.12.2025